*Azərbaycan Respublikası Təhsil*

*Nazirliyinin 04.07.2016-cı il tarixli,*

*458 nömrəli əmrinə 7 nömrəli əlavə*

**Lisey, məktəb-lisey və gimnaziyaların təmayül sinifləri üçün nümunəvi tədris planlarına dair qeydlər**

1. Şagirdlərin sayı 20 və daha çox olan siniflər aşağıdakı fənlərin tədrisində iki qrupa bölünür:

1.1. Tədris rus dilində aparılan VII-XI siniflərdə "Azərbaycan dili" (dövlət dili kimi).

1.2. Tədris dilindən asılı olmayaraq VII-XI siniflərdə xarici dil, "Fiziki tərbiyə", texniki təmayüllü IX-XI siniflərdə "İnformatika" fənni üzrə praktik məşğələlər, VII-VIII siniflərdə ikinci xarici dil, "Texnologiya".

2. Təmayül fənlərinin tədrisini səmərəli təşkil etmək məqsədilə tədris planlarında seçmə fənlərə, dərsdənkənar məşğələlərə, fakültativ, fərdi və qrup məşğələlərinə ayrılmış saatlar aşağıdakı kimi istifadə olunur:

2.1. *Texniki fənlər üzrə:*

2.1.1. VII sinifdə dərsdənkənar məşğələlərə ayrılan saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı "Riyaziyyat"ın, 1 (bir) saatı "İnformatikanın, 1 (bir) saatı isə "Fizika"nın tədrisinə verilmişdir.

2.1.2. VIII sinifdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı "Riyaziyyat"ın, 1(bir) saatı "Fizika"nın, 1(bir) saatı "Qarabağın tarixi" kursunun tədrisinə verilmişdir.

2.1.3. IX sinifdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı "İnformatika"nın, 1 (bir) saatı "Riyaziyyat"ın, 1(bir) saatı "Fizika"nın tədrisinə verilmişdir.

2.1.4. X sinifdə seçmə fənlərə ayrılmış saatlardan 3 (üç) saatı "Cəbr və analizin başlanğıcı"nın, 1 (bir) saatı "Həndəsə"nin, 2 (iki) saatı "Fizika"nın, 1 (bir) saatı "Xarici dil"in, 1 (bir) saatı "İnformatika"nın tədrisinə verilmişdir.

2.1.5. XI sinifdə seçmə fənlərə ayrılmış saatlardan 4 (dörd) saatı "Cəbr və analizin başlanğıcı"nın, 1 (bir) saatı "Həndəsə"nin, 2 (iki) saatı "Fizika"nın, 2 (iki) saatı "Xarici dil"in, 1 (bir) saatı "İnformatika"nın tədrisinə verilmişdir.

2.2. *Humanitar fənlər üzrə:*

2.2.1. VII sinifdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı “Azərbaycan dili”nin, 1 (bir) saatı “Azərbaycan tarixi”nin, 1 (bir) saatı “Nitq mədəniyyəti”nin tədrisinə verilmişdir.

2.2.2. VIII sinifdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı “Azərbaycan dili”nin, 1 (bir) saatı “Nitq mədəniyyəti”nin, 1 (bir) saatı “Qarabağın tarixi” kursunun tədrisinə verilmişdir.

2.2.3. IX sinifdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı “Nitq mədəniyyəti”nin, 2 (iki) saatı “Azərbaycan dili”nin tədrisinə verilmişdir.

2.2.4. X sinifdə seçmə fənlərə ayrılmış saatlardan 3 (üç) saatı “Azərbaycan dili”nin (tədris rus dilində olan siniflərdə “Rus dili”nin), 1 (bir) saatı “Ədəbiyyat”ın, 1 (bir) saatı “Tarix”in, 1 (bir) saatı “Azərbaycan tarixi”nin, 1 (bir) saatı “Xarici dil”in, 1 (bir) saatı “İnformatika”nın, fakültativ, fərdi və qrup məşğələlərinə ayrılan saatlardan 1 (bir) saatı “Üslubiyyat”ın tədrisinə verilmişdir.

2.2.5. XI sinifdə seçmə fənlərə ayrılmış saatlardan 3 (üç) saatı “Azərbaycan dili”nin (tədris rus dilində olan siniflərdə “Rus dili”nin), 1 (bir) saatı “Ədəbiyyat”ın, 1 (bir) saatı “Tarix”in, 2 (iki) saatı “Azərbaycan tarixi”nin, 2 (iki) saatı “Xarici dil”in, 1 (bir) saatı “İnformatika”nın, fakültativ, fərdi və qrup məşğələlərinə ayrılan saatlardan 1 (bir) saatı “Üslubiyyat”ın tədrisinə verilmişdir.

2.3. *Təbiət fənləri üzrə:*

2.3.1. VII sinifdə dərsdənkənar məşğələlər üçün ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı “Biologiya”nın, 1 (bir) saatı “Fizika”nın, 1 (bir) saatı isə “Kimya”nın tədrisinə verilmişdir.

2.3.2. VIII sinifdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan 1 (bir) saatı “Biologiya”nın, 1 (bir) saatı “Fizika”nın, 1 (bir) saatı “Qarabağın tarixi” kursunun tədrisinə verilmişdir.

2.3.3. IX sinifdə dərsdənkənar məşğələlərə ayrılmış saatlardan dərs cədvəlinə daxil edilməklə 1 (bir) saatı “Biologiya”nın, 1 (bir) saatı “Fizika”nın, 1 (bir) saatı “Kimya”nın tədrisinə verilmişdir.

2.3.4. X sinifdə seçmə fənlərə ayrılmış saatlardan 2 (iki) saatı “Biologiya”nın, 1 (bir) saatı “Fizika”nın, 2 (iki) saatı “Kimya”nın, 1 (bir) saatı “Fiziki coğrafiya”nın, 1 (bir) saatı “Xarici dil”in, 1 (bir) saatı “İnformatika”nın tədrisinə verilmişdir.

2.3.5. XI sinifdə seçmə fənlərə ayrılmış saatlardan 3 (üç) saatı “Biologiya”nın, 2 (iki) saatı “Kimya”nın, 2 (iki) saatı “Fizika”nın, 1 (bir) saatı “Fiziki coğrafiya”nın, 1 (bir) saatı “Xarici dil”in, 1 (bir) saatı “İnformatika”nın tədrisinə verilmişdir.